**İlyas Kədərli**

# VƏTƏNİM MƏNİM

şeirlər, əhvalatlar, deyişmələr

qanun nəşriyyatı

*Kitabın çapına verdiyi texniki dəstəyə görə*
*ƏLİ HƏSƏNQULİYEVƏ*
*minnətdarlığımızı bildiririk.*

**İlyas Kədərli. VƏTƏNİM MƏNİM**
Bakı, Qanun Nəşriyyatı, 2024, 200 səh.

Redaktor və ön söz müəllifi: Şərif Ağayar
Korrektor: Bəsti Məmmədova
Texniki redaktor: Aydın Səlimli
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafael Qasım

Kitabda 88 yaşlı müəllifin müxtəlif mövzularda yazdığı şeirlər, öz həyatı ilə bağlı maraqlı əhvalatlar və kiçik dastanlar yer alıb.

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

AB 022051 / İN 0626

© İlyas Kədərli, 2024
© Qanun Nəşriyyatı, 2024

# Vətən adamlar

Vətən həm də adamlardır. Hətta mənə qalsa, daha çox adamlardır. Çünki torpağı coğrafi ərazidən vətənə çevirən insanlar, özü də dəyərli insanlardır. İlyas kişi Laçını – doğma Qarakeçdini simvolizə edən bu cür dəyərli kişilərdəndir. Onunla üz-üzə gələn kimi o saat xoş bir auraya bürünürsən. O saat yadına ən doğma yerlər, ən doğma adamlar düşür. Məncə, bu da bir taledir. Hətta bəlkə, bir missiyadır. Çünki heç kim istəməklə belə ola bilməz. İşıq, doğmalıq, xoş aura fitrətdən gəlir. Səninlə bir yerdə doğulur.

İndi yurdumuz düşmən caynağından azad edilib. Biz ora rahatca gedib-gələ bilirik. Ora ilk dəfə gedəndə otuzillik həsrətdən sonra doğma yerləri görmək həyəcanı və sevinci ilə yanaşı yaxşı adamları da xatırlayırıq. Vətənlə bir yerdə düşürlər yadımıza. İstər dünyasını Laçında dəyişənlər, istər Laçın həsrəti ilə dəyişənlər... Çünki artıq onlar da vətənləşib.

Ən böyük missiya vətənin bir parçasına çevrilə bilməkdir.

İlyas kişinin kitabında bu nüansı tutmaq çətin deyil. Nadir insanların əlinin çatdığı ömür zirvəsində – 90 yaşın ərəfəsində İlyas kişidə bir Aşıq Ələsgər müdrikliyi hiss

elədim. Ustad da uzun yaşamışdı. O da qaçqınlıq görmüşdü. Onun da həyatı kədərli hadisələrlə dolu idi.

Əlbəttə, şair kimi Ələsgər zirvəsinə ucalmaq hələ indiyədək heç kimə qismət olmayıb, lakin biz taleyimizlə, kədərimizlə, həsrətimizlə ona bənzəyə bilirik. Yazdığımız sözə də istər-istəməz onun havası dəyib. İlyas kişinin bir çox misralarından Ələsgər günəşinin işığını gördüm. Bu mənim üçün gözlənilməz deyildi. Çünki Aşıq Ələsgər bir günəş kimi parlayır və işığı bütün saz-söz coğrafiyasına, o cümlədən bizim Zəngəzura düşür.

Bildiyiniz kimi, sovet vaxtı ucqar dağ kəndlərində mədəni mühit çox zəif idi. Nadir hallarda kəndlərə filmlər gəlirdi. Kənd klublarında yığışıb uzağı domino-nərdtaxta oynayırdılar. Doğrudur, vaxtı ilə Qarakeçdi kəndində müəllimlərin iştirakı ilə Səməd Vurğunun "Vaqif" dramını səhnələşdirmişdilər və insanlar bu tamaşaya böyük maraqla baxmışdı. O zamanın gənclərinin çoxu pyesin müxtəlif parçalarını tamaşadanca əzbərləyib deyir, hansı rolu kimin necə oynamasından ürəkdolusu danışırdılar. Lakin bu, istisna hal idi. Həmişə olmurdu. Bizdə mədəniyyətin daimi təmsilçisi aşıqlar idi. Onlar teatrı da əvəz edirdi, kinonu da, ədəbiyyatı da, musiqini də. Çünki həm çalır, həm oxuyur, həm də göstərirdilər. Sadə bir alətlə istənilən elə-elata ayaq basan, istənilən mağara düşən aşıq orada bir toy-büsat yaradırdı ki, gəl görəsən. Saz tanrının dağlara hədiyyəsi idi. Adamların çoxunun radio-televizor görmədiyi, qəzet-jurnal oxumadığı vaxtlarda saz həm də mətbuatı əvəz edir, cəmiyyətə lazımı məlumatları çatdırırdı. Saz eyni zaman-

da eldə-obada istedadı olan insanları yerindən tərpədir, onları yazmağa-yaratmağa səsləyirdi.

İlyas kişini də əslində saz pərvazlandırıb. Lakin bütün bunlar səbəb yox, vasitədir. Səbəb həmişə ilahidəndir. İlyas kişini yazmağa vadar edən keşməkeşli taleyidir. Onun kitabdakı "Çin olan arzular" oçerkini oxusanız, fikrimi daha rahat anlayacaqsınız. Yazının azyaşlı qəhrəmanları mənə Güney Azərbaycandan olan dünya şöhrətli rejissor Məcid Məcidinin filmlərindəki uşaqları xatırlatdı: köməksiz, əlacsız, lakin həyat eşqi ilə dolu, diribaş, mübariz...

Bəli, adam bəzən film kimi həyat yaşayır, lakin bunun fərqinə varmır. Nə yaxşı ki, İlyas kişi hamı kimi davranmadı. Hətta bizim bölgədən çıxan hər şair kimi davranmadı. Öz həyatının fərqinə vardı və onun az bir hissəsini də olsa qələmə aldı.

Bizdə hamı şeir yazır. Həm də aşıq şeiri yazır. Üstəlik, özündən əvvəlki uğurlu şairlərə bənzəmək istəyir. Əlbəttə, burada pis heç nə yoxdur. Lakin bu ənənə istər-istəməz şairləri ifrat dərəcədə biri-birinə bənzədib epiqonçuluğa yuvarlayır, nəticədə çoxlu maraqsız şeirlər ortaya çıxır. Hər adam öz taleyinin yazısını yazmağa girişmir. Sanki bu onun yadına düşmür. Ola bilsin, çoxu öz taleyini yazıya layiq bilmir, yaxud hansısa səbəbdən buna ehtiyac duymur. Çəkinmədən deyirəm: yanlış qənaətdir! Yer üzündə həyatı romana layiq olmayan adam tapmaq mümkün deyil.

Hətta bir yox, bir neçə romana...

Hər bir insanın həyatında ən azı "Çin olan arzular"a bənzəyən səmimi bir oçerk mütləq vardır. Amma onu yazmağa hər adamın gücü çatmır. Kaş belə yazılar mümkün

qədər çox yazıla. Biz belə yazıları oxuduqca, təkcə insanları tanımır, həm də dövrü xarakterizə edirik.

İlyas kişi yalnız adını çəkdiyim yazıda yox, bütün kitabında öz taleyini – özünü yazıb. Bəzən bədii-publisistika ilə, bəzən qoşma ilə, bəzən gəraylı ilə, bəzən bayatı ilə, bəzən balaca dastan-əhvalatla, bəzən deyişmələrlə... Hətta yaxınlarının onun haqqında yazdıqları da kitabda ayrıca bir bölmədir və müəllifin təsəvvürümüzdəki obrazını axıracan tamamlayır. Bu səbəbdən kitabı oxuyarkən onun bədii məziyyətlərindən əvvəl içindəki sadəliyi və səmimiyyəti qiymətləndiririk.

Kitabın fiziki coğrafiyası da genişdir. Orta Asiyadan tutmuş, Bakıya, Qarabağacan geniş bir arealı əhatə edir. Təbii, mərkəzdə də Laçın! Bu kitabda Qarakeçdi kəndi dünyanın paytaxtıdır. Kitabda kəndin yaranma tarixi və igid insanları ilə bağlı ayrıca bir məqalə də yer alıb.

Eyni zamanda, Laçının Xosrov bəy, Sultan bəy, Ovçu Cəfər, Əyyub Bəndəliyev, Nizami Məmmədov və başqaları kimi say-seçmə insanları da sevgi və sayğı ilə xatırlanır. Müəllif bu adamların çoxu haqqında həm yığcam giriş məqaləsi, həm də şeir yazıb. Bir növ şeirin hekayəsini – yaranma şəraitini və səbəblərini qələmə alıb. Eyni zamanda, özünə doğma insanlardan da bu səpgidə nümunələr yaradıb.

Kitabın bir özəlliyi də var – İlyas Kədərli gənclik illərində yazdığı şeirləri itirdiyi üçün onları indiki yaşda xatırlamağa çalışıb, bəzilərini bərpa edib, bəzilərini yarımçıq xatırlayıb, bəzilərini isə yada sala bilmədiyi üçün yenidən işləyib.

Dünyada 90 yaşın astanasında kitab yazan nadir adamlar olub. İlyas kişinin bu ilahi şövqü təkcə ağır günlər yaşaması ilə bağlı deyil. Onun insan üçün hər şeydən vacib bir keyfiyyəti var: ömrünü halal yaşayıb, özü kimi övladlar böyüdüb və haqlı olaraq bu nümunəvi ömürdən bir kitab yadigar qalmasını istəyib.

Madam istəyib, bizə də sevə-sevə oxumaq düşür.

## Düşüncələrim

*Əziz oxucularım!*

88 yaşda kitab yazmaq fikrinə düşməyimin bir neçə səbəbi var. Bu səbəblərdən biri uşaq və cavan yaşlarımda yazdığım şeirlərin it-bata düşməsi və onların yaddaşımda qalanlarının bəzilərini olduğu kimi, bəzilərini isə yenidən yazmağa başlamağımdır.

Digər səbəb övladlarımın və yaxın ətrafımdakı insanların mənə demələri ki, bəs sən şeir yazanda kəndimizdə heç kim yazmırdı, niyə şeir və xatirələrdən ibarət kitab yazmayasan?

Beləliklə, məndə kitab yazmaq marağı yarandı.

Amma bu kitab yaşımın çox, yaddaşımın pozulan vaxtına düşdü. Xeyli çətinlik və əziyyət çəkdim. Məncə, on-on beş il qabaq olsaydı, kitabım indikindən daha maraqlı alınardı. Buna görə də müəyyən nöqsanlara yol verməmiş olmaram. Bunu siz oxucuların ixtiyarına buraxıram.

Ətrafımdakı bəzi insanlar mənə deyirlər: "Sənin yaxşı, savadlı övladların var, sənə yaxşı qulluq edirlər, maddi dolanışığınız da yaxşıdır, niyə yazılarında həyatından narazılıq edirsən?"

Deyim, bilin, mənim heç bir günahım olmadan çəkdiyim əzab-əziyyət qədərindən artıq olub. Kitabımı ətraflı oxuyanlar bunu biləcəklər. İnsanlar uşaq yaşlarında bütün

çətinliklərə, əzab-əziyyətlərə dözür. Çünki uşaqlar dünyanı dərk etmək qabiliyyətinə malik deyillər. Mən uşaqlıqda yaşadığım, gördüyüm haqsızlıqları sonralar xatırladıqca kədərlənməyə bilmirəm.

Başqa yazarlardan fərqli olaraq eşqdən, sevgidən bir kəlmə də yazmamışam. Cavan vaxtlarımda yaşadığım çətinliklər, sıxıntılar buna imkan vermədi.

Mənim ən nifrət etdiyim, pislədiyim cəhət yalançılıqdır. Ona görə də yalan danışmıram. Bunu məni yaxından tanıyanlar bilir. Yalan haqqında ataların çox sözü var. Birində də belə deyiblər: “Yalan etibarın qayçısıdır”.

Mənim də həyatda səhvlərim, nöqsanlarım olub. Onları həmişə etiraf etmişəm, yeri gələndə üzr də istəmişəm, amma bilərəkdən görülən işlər səhv deyil. Buna görə də qəsdən törədilən günahlardan qorunaraq, bir növ özümə nəzarətçi olmuşam.

İnsanlığımı tamahıma satmamışam.

Həyatda baş verən haqsızlıqlar məndən yan keçməyib. Daim məni düşündürüb, kədərləndirib.

Laçın rayon Şeylanlı kənd sakini, yaxşı insan, şair Möhbalı bir gözəl təcnisində deyir:

*Az çiçəkdən az şan çəkər az arı,*
*Qanan kəsin çoxdur dərdi, azarı...*

Mən bir çox yazarlardan fərqli olaraq hər hansı bir şəxs barəsində şeir yazanda əvvəlcə onun kimliyindən, nəyə qadir olduğundan nəsr formasında qısa təqdimat yazıram.

Onun ardınca şeirimi verirəm. Elə bilirəm, şeirin izahını verəndə, yaxud tarixçəsini söyləyəndə daha maraqlı alınır. On görə də oxucularımdan xahiş edirəm ki, fikirlərimi, düşüncələrimi düzgün anlamaq üçün şeirləri nəsrlə yazılan parçalardan sonra oxusunlar.

Tənqidi, tərbiyəvi şeirlərim çoxdur. Bunlar ünvanlı deyil. Şeir özü aid olduğu şəxsi tapıb öz sözünü deyəcək. Məqsədim kimisə alçaltmaq, acılamaq deyil, onu doğru yola qaytarmaqdır.

***Hörmətlə,***
***İlyas Kədərli.***

## Sizə yazmışam

Haqqı, ədaləti sevən, qoruyan,
Mən bu kitabımı sizə yazmışam.
Vətəninə, el-obaya yarıyan,
Mən bu kitabımı sizə yazmışam.

Məni anlayanlar, məni ananlar,
Kədərimə qəhərlənib, yananlar,
Keçmişimlə maraqlanan insanlar,
Mən bu kitabımı sizə yazmışam.

Kədərlini xoşlayanlar, deyənlər,
Zəhmətilə halal çörək yeyənlər,
İsməti tamahdan artıq sayanlar,
Mən bu kitabımı sizə yazmışam.

## Əzizim

Qəm qəlbimi yona-yona nazildib,
Kövrəlmişəm, gözüm yaşdı, əzizim.
Xoş günü, qisməti Allah pay verir,
Çalışmaq, əlləşmək boşdu, əzizim.

Nəfim dərdi-qəmdi, qazancım kədər,
Günbəgün çoxaldı, bir dərya qədər.
Əməyim, əziyyətim çox olub hədər,
Nələr gəldi, nələr keçdi, əzizim.

Ağrılara, çətinliyə dözmüşəm,
Bəzən bunu yaxşılığa yozmuşam.
Həmişə aldanıb çox uduzmuşam,
Yolum zülmət, çınqıl, daşdı, əzizim.

Kədərliyəm, çox dolanıb gəzmişəm,
Sözü-sözə tutuşdurub düzmüşəm.
Dərdlərimdən bir azını yazmışam,
Oxusanız mənə xoşdu, əzizim.

## Çin olan arzularım

Ağır illər idi. Mən iki bacımla dolanışıq üçün Ağcabədi rayonunun Avşar kəndinə pambıq yığmağa getdim. Onda mənim 14, bacımın birinin 12, o birinin 10 yaşı vardı. Açığı, evdən bu cür çıxıb getməyimizin səbəblərini açıb heç kimə demək istəmirəm.

Pambıq tarlasında mənə bir kişi yaxınlaşdı:

– Ay bala, neçə gündür üç uşaq pambıq yığırsınız, sizin ata-ananız yoxdur?

Dedim:

– Əmi, var, gələcəklər.

Dedi:

– Nə vaxt gələcəklər?

Dedim:

– Vaxtını bilmirəm, amma gələcəklər!

Dedi:

– Ay bala, məni yozdurma! Üçünüz də məktəblisiniz, ata-ananız olsa, sizi məktəbdən ayırıb pambığa yollamaz.

Dedim:

– Mən yeddinci sinfi bitirmişəm, bacılarım oxuya bilmədilər. Məsləhətimiz belə oldu ki, pambığa gələk.

Dedi:

– İndi deyirsən, ata-anan gələcək?

Dedim:

– Bəli, gələcək.